**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

# ƏSAS STATİSTİK GÖSTƏRİCİLƏR ÜZRƏ MƏLUMATLARA YENİDƏN BAXILMASI REQLAMENTİ

**Bakı - 2016**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

Dövlət Statistika Komitəsinin 10.05.2016-cı il tarixli 60/t nömrəli əmri ilə təsdiq edilmişdir.

# ƏSAS STATİSTİK GÖSTƏRİCİLƏR ÜZRƏ MƏLUMATLARA YENİDƏN BAXILMASI REQLAMENTİ

**Bakı - 2016**

# Məlumatların yenidən nəzərdən keçirilməsinin əsas prosedurları

## Giriş

**Məlumatların yenidən nəzərdən keçirilməsi (baxılması) dedikdə, rəsmi statistika orqanı tərəfindən əvvəllər ictimaiyyətə açıqlanan məlumatlarda düzəlişlərin edilməsi başa düşülür.**

Nəşr olunmuş məlumatların yenidən nəzərdən keçirilməsi statistik fəaliyyətin əsas tərkib hissəsi kimi bütün ölkələr üçün vacib tədbirlərdən biridir. Məlumatların yenidən nəzərdən keçirilməsi statistik göstəricilərin işlənməsi və nəşr edilməsi prosesi ilə bağlıdır. Beynəlxalq miqyasda məlumatların müqayisə olunmasının təmin edilməsi zərurəti statistik məlumatların təkrar nəzərdən keçirilməsinə tələbatı artırır.

Dövlət Statistika Komitəsinin fəaliyyətinin əsas məqsədi bütün istifadəçiləri zəruri statistik məlumatlarla təmin etmək, etibarlı və açıq təşkilat kimi öz nüfuzunu məqsədyönlü şəkildə həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə yüksəltməkdən ibarətdir.

Məlumatlara yenidən baxılması istifadəçilər arasında narahatçılıq yaratmamaq üçün əvvəlcədən müəyyən olunmuş qrafik əsasında həyata keçirilir. İstifadəçilərin tələbatlarının ödənilməsi üçün statistika orqanları tərəfindən ilkin məlumatlar hazırlanır və yeni informasiyalar daxil olduqca, əvvəlki məlumatlar yenidən nəzərdən keçirilir. Məlumatların təkrar nəzərdən keçirilməsi aylıq, rüblük, yarımillik və illik göstəricilərə şamil edilir. Məlumatların dəqiqləşdirilməsi istifadəçilərin maksimal dərəcədə aktual və dəqiq məlumatlarla təmin edilməsi məqsədilə həyata keçirilir. Bununla yanaşı, statistik məlumatların müəyyən müddət keçdikdən sonra təkrar dəqiqləşdirilməsi rəsmi statistik məlumatlara olan inamın azalması təsəvvürünü yarada bilər, lakin, digər tərəfdən, nəşr edilmiş göstəricilər üzrə yeni məlumatların vaxtında nəzərə alınmaması gələcəkdə daha çox dəqiqləşdirmələrin həyata keçirilməsinə səbəb ola bilər. Bundan əlavə, əldə edilmiş yeni məlumatlar əsasında göstəricilərə vaxtında düzəlişlərin edilməməsi, nəşr olunmuş göstəricilər üzrə növbəti nəşrlərdə ən aktual məlumatların nəzərə alınmaması statistikaya olan etibara daha güclü zərbə vura bilər.

## Məlumatlara yenidən baxılmanın səbəbləri

Bir qayda olaraq yenidən baxılmanın iki növü var:

a) “normal” statistik prosedur ilə əlaqədar yenidən baxılma:

- statistik məlumatın hesablanmasında istifadə olunan məlumat mənbəyinə yeni, daha dəqiq məlumatların əlavə olunması. Məsələn, əvvəlcə iri təsərrüfat subyektlərinin məlumatları əsasında göstərici hesablanır, daha sonra isə orta və kiçik subyektlərdən məlumat toplanır və göstəricilərdə düzəlişlər edilir;

- bəzən, cari məlumatlar mövcud olmur, buna görə də belə göstəricilərin hesablanması əvvəlki dövrün məlumatlarının ekstrapolyasiyasına (əvvəlki dövrdə ardıcıl mövcud olan göstəricinin tendensiyasının növbəti dövrə şamil edilməsi) əsaslanmaqla statistik metodlardan istifadə etməklə şərti hesablanır. Sonradan məlumatlar daxil olduqca şərti hesablanmış göstəricilərdə düzəlişlər edilir;

- mövsümi amillərin təsirini əks etdirən mövsümilik əmsalının yenilənməsi. Yenicə başa çatmış il üzrə mövsümi amillərin təsiri hesablanır və həm müvafiq il, həm də əvvəlki bir neçə il üzrə mövsümi amilə əsaslanaraq yeni əmsal nəzərə alınmaqla göstəricilər hesablanır;

- indekslərin hesablanmasında istifadə olunan baza ilinin dəyişdirilməsi. Bu həm ayrılıqda, həm də indeksin hesablanmasında istifadə olunan xüsusi çəki əmsallarının dəyişdirilməsi ilə əlaqədar olaraq baş verir;

- statistik göstəricinin hesablanmasında istifadə olunan metodlarda, metodologiyada dəyişiklikliyin edilməsi, statistik göstəricilərin, məlumatların mahiyyətində, izahında və təsnifatlarda dəyişiklikliyin olması;

- respublika miqyasında statistik tədbirlərin - əhalinin siyahıyaalınması, kənd təsərrüfatı siyahıyaalınması və iqtisadi siyahıyaalmalar nəticəsində siyahıyaalmalararası dövr üzrə müvafiq göstəricilərdə düzəlişlərin edilməsi.

b) rəsmi statistika hesabatlarını təqdim edən statistik vahidlərin məlumatlarında baş vermiş səhvlərin, habelə ayrı-ayrı mənbələrdən daxil olan məlumatların istifadəsi zamanı yaranan səhvlərin düzəldilməsi. Səhvlər aşkar olunduqdan sonra onların düzəldilməsinin dərhal həyata keçirilməsi vacibdir. Bu tip düzəlişlər qrafikdən kənar həyata keçirilir.

**Həyata keçirilmə vaxtına görə məlumatların yenidən nəzərdən keçirilməsi aşağıdakı kimi qruplaşdırılır:**

**Cari** – aylıq, rüblük və yarımillik məlumatlarda düzəlişlərin edilməsi;

**İllik** – il üzrə düzəlişlər aylar və ya rüblər üzrə məlumatlar hazır olduqdan sonra həyata keçirilir. İllik düzəlişlər adətən bir neçə ili əhatə edir.

**Genişmiqyaslı** – adətən statistik metodlarda, təsnifatlarda baş verən dəyişikliklərlə əlaqədar olaraq aparılır və uzunmüddətli dövrü əhatə edir.

**Məlumatların yenidən nəzərdən keçirilməsinin əsas prinsipləri:**

Məlumatların yenidən nəzərdən keçirilməsi istifadəçilərə kömək etməklə yanaşı, eyni zamanda məlumatların beynəlxalq səviyyədə daha real müqayisə olunmasına imkan verir. Məlumatların yenidən nəzərdən keçirilməsi aşağıdakı prinsiplərə əsaslanır:

1) məlumatların nəzərdən keçirilməsinin səbəbləri və təqvimi barədə statistik orqanın elanı nəşr olunmalı və istifadəçilər tərəfindən asan əldə olunmalıdır;

2) yenidən baxılmanın həyata keçirilməsi təqviminin istifadəçilər üçün vacib olduğu nəzərə alınmalı, yenidən baxılma dövrü illər üzrə sabit olmalı və vaxtında həyata keçirilməlidir;

3) geniş konseptual və metodoloji dəyişikliklər (yeni təsnifatların tətbiqi və s.) adətən hər dörd-altı ildən bir həyata keçirilməlidir ki, istifadəçilərə narahatçılıq yaratmasın;

4) bir-biri ilə qarşılıqlı əlaqədə olan göstəricilər dinamika sıralarının əldə edilməsinin mümkünlüyü üçün belə düzəlişlər son bir neçə ili əhatə etməlidir;

5) həm ilkin, həm də düzəlişlər olunan zaman məlumatların dəqiqliyi qorunmalıdır;

6) hər bir statistik göstərici üzrə dinamika sıralarında ardıcıllıq, yekdillik təmin olunmalıdır;

7) məlumatlara yenidən baxılma barədə geniş məlumatlar rəsmi şəkildə qeyd olunmalı və istifadəçilər üçün açıq olmalıdır. Rəsmi qeyd kimi aşağıdakı şərtlər vacibdir: statistik nəşrlərdə həm ilkin, həm də nəzərdən keçirilmiş məlumatlar barədə qeydin olması, yenidən baxılmanın səbəbinin izah olunması, ardıcıl dinamika sıralarını təşkil etmək mümkün olmadıqda yaranan boşluqların izah edilməsi;

8) bu və ya digər statistik sahə ilə bağlı istifadəçilərə məlumatların yenidən nəzərdən keçirilməsinin nəticələrinin miqyası barədə məlumat verilməlidir;

9) məlumatlarda düzəlişlərin edilməsini həyata keçirərkən statistik orqanın kifayət qədər maliyyə və inzibati resurslara malik olması vacibdir.

Məlumatların dəqiqləşdirilməsi ilə bağlı yaranan problemlərin aradan qaldırılması və əsassız tənqidlərlə üzləşməmək üçün statistik məlumatların dəqiqləşdirilməsi və yenidən baxılması sahəsində düşünülmüş və şəffaf siyasət həyata keçirilməlidir. Həmin siyasətin ən vacib tərkib hissəsi statistik məlumatların hazırlanması, dəqiqləşdirilməsi və dərc olunması təqviminin işlənilməsidir.

Yuxarıda qeyd olunanları nəzərə almaqla, bu siyasətin həyata keçirilməsi məqsədilə Dövlətstatkomun sahə şöbələri tərəfindən müvafiq sahələr üzrə statistik məlumatların işlənməsi, təkrar yoxlanması qaydaları hazırlanmış və təqvimi tərtib olunmuşdur.

## Milli hesablar və makroiqtisadi göstəricilər statistikası

## Ümumi daxili məhsul - rüblük

### Birinci rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin birinci rübün məlumatlarına düzəlişləri, ikinci rüb üzrə əldə edilmiş statistik məlumatlar, dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə ÜDM-in 2-ci dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin üçüncü rüb üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə ÜDM-in 3-cü dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin dördüncü rüb üzrə məlumatları ÜDM-in illik ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə ÜDM-in 4-cü dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə ÜDM-in son dəqiqləşməsi

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

### İkinci rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin ikinci rübün məlumatlarına düzəlişləri, üçüncü rüb üzrə əldə edilmiş statistik məlumatlar və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### İkinci rüb üzrə ÜDM-in 2-ci dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin dördüncü rüb üzrə məlumatları, ÜDM-in illik ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**İkinci rüb üzrə ÜDM-in 3-cü dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**İkinci rüb üzrə ÜDM-in son dəqiqləşməsi**

Dəqiqləşdirmə illik ÜDM-in yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Üçüncü rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin üçüncü rübün məlumatlarına düzəlişləri, dördüncü rüb üzrə əldə edilmiş statistik məlumatlar, ÜDM-in illik ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**Üçüncü rüb üzrə ÜDM-in 2-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**Üçüncü rüb üzrə ÜDM-in son dəqiqləşməsi**

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Dördüncü rüb üzrə ÜDM-in 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin dördüncü rübün məlumatlarına düzəlişləri, növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**Dördüncü rüb üzrə ÜDM-in son dəqiqləşməsi**

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## Ümumi daxili məhsul - illik

### ÜDM-in 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə hesabat ilinin dörd rübü üzrə hesablanmış ÜDM-in məlumatları nəzərə alınmaqla həyata keçirilir.

### ÜDM-in son dəqiqləşməsi

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidiyyəti şöbələrinin yekun illik məlumatları, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Dövlət Neft Fondu və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

## Milli gəlir - rüblük

### Birinci rüb üzrə milli gəlirin 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

### Birinci rüb üzrə milli gəlirin 2-ci dəqiqləşməsi

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

### Birinci rüb üzrə milli gəlirin 3-cü dəqiqləşməsi

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

### Birinci rüb üzrə milli gəlirin 4-cü dəqiqləşməsi

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

### Birinci rüb üzrə milli gəlirin son dəqiqləşməsi

Dəqiqləşdirmə milli gəlirin illik hesabatı üzrə yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

### İkinci rüb üzrə milli gəlirin 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

**İkinci rüb üzrə milli gəlirin 2-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

**İkinci rüb üzrə milli gəlirin 3-cü dəqiqləşməsi**

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

**İkinci rüb üzrə milli gəlirin son dəqiqləşməsi**

Dəqiqləşdirmə milli gəlirin illik hesabatı üzrə yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Üçüncü rüb üzrə milli gəlirin 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

**Üçüncü rüb üzrə milli gəlirin 2-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

**Üçüncü rüb üzrə milli gəlirin son dəqiqləşməsi**

Dəqiqləşdirmə milli gəlirin illik hesabatı üzrə yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Dördüncü rüb üzrə milli gəlirin 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə müvafiq rüb üzrə ÜDM göstəricisinin dəqiqləşdirilmiş məlumatları əsasında həyata keçirilir.

**Dördüncü rüb üzrə milli gəlirin son dəqiqləşməsi**

Dəqiqləşdirmə milli gəlirin illik hesabatı üzrə yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## Milli gəlir - illik

### Milli gəlirin 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə hesabat ilinin dörd rübü üzrə hesablanmış milli gəlirin məlumatları nəzərə alınmaqla həyata keçirilir.

### İllik milli gəlirin son dəqiqləşməsi

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidiyyəti şöbələrinin yekun illik məlumatları, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Dövlət Neft Fondu və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

## İnstitusional sektorlar üzrə hesablar- rüblük

### Birinci rüb üzrə institusional sektorlar üzrə hesabların 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin birinci rübün məlumatlarına düzəlişləri, ikinci rüb üzrə əldə edilmiş statistik məlumatlar, dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə institusional sektorlar üzrə hesabların 2-ci dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin üçüncü rüb üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə institusional sektorlar üzrə hesabların 3-cü dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin dördüncü rüb üzrə məlumatları illik institusional sektorlar üzrə hesabların ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə institusional sektorlar üzrə hesabların 4-cü dəqiqləşməsi

Dəqiqləşdirmə sahə şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

### Birinci rüb üzrə institusional sektorlar üzrə hesabların son dəqiqləşməsi

Dəqiqləşdirmə illik institusional sektorlar üzrə hesabların yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**İkinci rüb üzrə institusional sektorlar üzrə hesabların 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin ikinci rübün məlumatlarına düzəlişləri, üçüncü rüb üzrə əldə edilmiş statistik məlumatlar və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**İkinci rüb üzrə institusional sektorlar üzrə hesabların 2-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin dördüncü rüb üzrə məlumatları, illik institusional sektorlar üzrə hesabların ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**İkinci rüb üzrə institusional sektorlar üzrə hesabların 3-cü dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**İkinci rüb üzrə institusional sektorlar üzrə hesabların son dəqiqləşməsi**

Dəqiqləşdirmə illik institusional sektorlar üzrə hesabların yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Üçüncü rüb üzrə institusional sektorlar üzrə hesabların 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin üçüncü rübün məlumatlarına düzəlişləri, dördüncü rüb üzrə əldə edilmiş statistik məlumatlar, illik ÜDM-in ilkin qiymətləndirmələri və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**Üçüncü rüb üzrə institusional sektorlar üzrə hesabların 2-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**Üçüncü rüb üzrə institusional sektorlar üzrə hesabların son dəqiqləşməsi**

Dəqiqləşdirmə illik institusional sektorlar üzrə hesabların yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Dördüncü rüb üzrə institusional sektorlar üzrə hesabların 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə sahə şöbələrinin dördüncü rübün məlumatlarına düzəlişləri, növbəti ilin birinci rübü üzrə məlumatları və dinamika sıralarının əlaqələndirilməsi məqsədilə aparılan hesablamalar əsasında həyata keçirilir.

**Dördüncü rüb üzrə institusional sektorlar üzrə hesabların son dəqiqləşməsi**

Dəqiqləşdirmə illik institusional sektorlar üzrə hesabların yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## İnstitusional sektorlar üzrə hesablar - illik

**İnstitusional sektorlar üzrə hesabların 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə hesabat ilinin dörd rübü üzrə hesablanmış institusional sektorlar üzrə hesabların məlumatları nəzərə alınmaqla həyata keçirilir.

**İnstitusional sektorlar üzrə hesabların son dəqiqləşməsi**

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidiyyəti şöbələrinin yekun illik məlumatları, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Dövlət Neft Fondu və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

## Əhalinin gəlir və xərcləri - rüblük

**Birinci rüb üzrə əhalinin gəlir və xərclərinin 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidiyyəti şöbələrinin rüblük məlumatları, bələdiyyə büdcələrinin gəlirləri və xərclərinə dair məlumatlar, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

**Birinci rüb üzrə əhalinin gəlir və xərclərinin son dəqiqləşməsi**

Dəqiqləşdirmə Milli hesablar sisteminin hesabat ili üzrə yekun göstəriciləri nəzərə alınmaqla həyata keçirilir.

**İkinci rüb üzrə əhalinin gəlir və xərclərinin 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidyyəti şöbələrinin rüblük məlumatları, bələdiyyə büdcələrinin gəlirləri və xərclərinə dair məlumatlar, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

**İkinci rüb üzrə əhalinin gəlir və xərclərinin son dəqiqləşməsi**

Dəqiqləşdirmə Milli hesablar sisteminin hesabat ili üzrə yekun göstəriciləri nəzərə alınmaqla həyata keçirilir.

**Üçüncü rüb üzrə əhalinin gəlir və xərclərinin 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidiyyəti şöbələrinin rüblük məlumatları, bələdiyyə büdcələrinin gəlirləri və xərclərinə dair məlumatlar, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

**Üçüncü rüb üzrə əhalinin gəlir və xərclərinin son dəqiqləşməsi**

Dəqiqləşdirmə Milli hesablar sisteminin hesabat ili üzrə yekun göstəriciləri nəzərə alınmaqla həyata keçirilir.

**Dördüncü rüb üzrə əhalinin gəlir və xərclərinin 1-ci dəqiqləşməsi**

Dəqiqləşdirmə Dövlətstatkomun aparatının aidiyyəti şöbələrinin rüblük məlumatları, bələdiyyə büdcələrinin gəlirləri və xərclərinə dair məlumatlar, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi və digər dövlət orqanlarının yekun məlumatları nəzərə alınmaqla həyata keçirilir.

**Dördüncü rüb üzrə əhalinin gəlir və xərclərinin son dəqiqləşməsi**

Dəqiqləşdirmə Milli hesablar sisteminin hesabat ili üzrə yekun göstəriciləri nəzərə alınmaqla həyata keçirilir.

## Regionlar üzrə məhsul buraxılışı

**Yanvar-mart ayları üzrə məhsul buraxılışının son dəqiqləşməsi**

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Yanvar-iyun ayları üzrə məhsul buraxılışının son dəqiqləşməsi**

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Yanvar-sentyabr ayları üzrə məhsul buraxılışının son dəqiqləşməsi**

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

**Yanvar-dekabr ayları üzrə (illik) məhsul buraxılışının son dəqiqləşməsi**

Dəqiqləşdirmə ÜDM-in illik yekun göstəricisi nəzərə alınmaqla həyata keçirilir.

## Xarici investisiya qoyuluşu

### Yanvar-mart ayları üzrə xarici investisiya qoyuluşunun son dəqiqləşməsi

Dəqiqləşdirmə Tədiyə balansının müvafiq aylar üzrə məlumatları nəzərə alınmaqla həyata keçirilir.

### Yanvar-iyun ayları üzrə xarici investisiya qoyuluşunun son dəqiqləşməsi

Dəqiqləşdirmə Tədiyə balansının müvafiq aylar üzrə məlumatları nəzərə alınmaqla həyata keçirilir.

### Yanvar-sentyabr ayları üzrə xarici investisiya qoyuluşunun son dəqiqləşməsi

Dəqiqləşdirmə Tədiyə balansının müvafiq aylar üzrə məlumatları nəzərə alınmaqla həyata keçirilir.

### Yanvar-dekabr ayları üzrə (illik) xarici investisiya qoyuluşunun son dəqiqləşməsi

Dəqiqləşdirmə Tədiyə balansının müvafiq aylar üzrə məlumatları nəzərə alınmaqla həyata keçirilir.

# 2. Sənaye statistikası

## Sənaye istehsalının dəyəri - rüblük

### Sənaye istehsalının dəyərinin 1-ci dəqiqləşməsi

Dəqiqləşdirmə hesabata cəlb edilən müəssisələrin əvvəl təqdim etdikləri aylıq məlumatlara rəsmi dəyişiklikləri, kiçik müəssisələr üzrə rüblük məlumatların dəyişiklikləri və fərdi sahibkarlar üzrə rüblük məlumatların dəyişiklikləri əsasında aparılır.

### Sənaye istehsalının dəyərinin son dəqiqləşməsi (yekun)

Sənaye müəssisələrinin istehsalı üzrə dəqiqləşdirilmiş yekunlar aşağıdakı məlumatlar əsasında formalaşır:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik "Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (sənaye) rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- fərdi sahibkarlar tərəfindən təqdim edilmiş rüblük "Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın – fiziki şəxsin işi haqqında" 1-fərdi sahibkarlıq (sənaye) rəsmi statistika hesabatının məlumatları;
- qeyri-sənaye fəaliyyəti ilə məşğul olan müəssisələrin sənaye məhsulunun dəyərinə dair məlumatları;
- ev təsərrüfatlarının istehsal etdikləri sənaye məhsuluna hesablanan əlavələrin dəqiqləşdirilmiş dəyəri.

## Sənaye istehsalının dəyəri - illik

### Sənaye istehsalının dəyərinin son dəqiqləşməsi (yekun)

Aylıq və rüblük hesabatlardan formalaşdırılan illik məlumatlar ilin yekununa görə aşağıdakılar əsasında dəqiqləşdirilir:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik “Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında” 1-istehsal (sənaye) rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- fərdi sahibkarlar tərəfindən təqdim edilmiş rüblük “Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın – fiziki şəxsin işi haqqında” 1-fərdi sahibkarlıq (sənaye) rəsmi statistika hesabatının məlumatları;
- qeyri-sənaye fəaliyyəti ilə məşğul olan müəssisələrin sənaye məhsulunun dəyərinə dair məlumatları;
- ev təsərrüfatlarının istehsal etdikləri sənaye məhsuluna hesablanan əlavələrin dəqiqləşdirilmiş həcmi.

## Sənaye müəssisələrinin dəyər və natura ifadəsində məhsul istehsalı və yüklənməsi - rüblük

### Sənaye müəssisələrinin dəyər və natura ifadəsində məhsul istehsalı və yüklənməsinin 1-ci dəqiqləşməsi

Müəssisələrin dəyər və natura ifadəsində istehsalı üzrə məlumatları aşağıdakılar nəzərə alınmaqla formalaşdırılır:

- kiçik müəssisələr üzrə rüblük məlumatların dəyişiklikləri;
- fərdi sahibkarlar üzrə rüblük məlumatların dəyişiklikləri.

### Sənaye müəssisələrinin dəyər və natura ifadəsində məhsul istehsalı və yüklənməsinin son dəqiqləşməsi (yekun)

Sənaye müəssisələrinin dəyər və natura ifadəsində istehsalı üzrə dəqiqləşdirilmiş yekunlar aşağıdakı məlumatların əsasında formalaşır:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik “Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında” 1-istehsal (sənaye) rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- fərdi sahibkarlar tərəfindən təqdim edilmiş rüblük “Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın – fiziki şəxsin işi haqqında” 1-fərdi sahibkarlıq (sənaye) rəsmi statistika hesabatının məlumatları;
- qeyri-sənaye fəaliyyəti ilə məşğul olan müəssisələrin sənaye məhsulunun dəyərinə dair məlumatları;
- ev təsərrüfatlarının istehsal etdikləri sənaye məhsuluna hesablanan əlavələrin dəqiqləşdirilmiş həcmi.

## Sənaye müəssisələrinin dəyər və natura ifadəsində məhsul istehsalı və yüklənməsi - illik

### Sənaye müəssisələrinin dəyər və natura ifadəsində məhsul istehsalı və yüklənməsinin son dəqiqləşməsi

Aylıq və rüblük hesabatlardan formalaşdırılan illik məlumatlar ilin yekununa görə aşağıdakılar əsasında dəqiqləşdirilir:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik "Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (sənaye) rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- fərdi sahibkarlar tərəfindən təqdim edilmiş rüblük "Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın – fiziki şəxsin işi haqqında" 1-fərdi sahibkarlıq (sənaye) rəsmi statistika hesabatının məlumatları;
- qeyri-sənaye fəaliyyəti ilə məşğul olan müəssisələrin sənaye məhsulunun dəyərinə dair məlumatları;
- ev təsərrüfatlarının istehsal etdikləri sənaye məhsuluna hesablanan əlavələrin dəqiqləşdirilmiş həcmi.

## Sənaye istehsalı indeksi - rüblük

### Sənaye istehsalı indeksinin 1-ci dəqiqləşməsi

Aylıq indekslərin dəqiqləşdirilməsi rüblük olaraq bütün müəssisələri əhatə etməklə yenidən hesablanır (iri, orta və kiçik).

### Sənaye istehsalı indeksinin son dəqiqləşməsi (yekun)

İndekslərin yekun dəqiqləşdirilməsi aşağıdakılar nəzərə alınmaqla aparılır:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik "Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (sənaye) rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- fərdi sahibkarlar tərəfindən təqdim edilmiş rüblük "Sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarın – fiziki şəxsin işi haqqında" 1-fərdi sahibkarlıq (sənaye) rəsmi statistika hesabatının məlumatları.

# 3.Tikinti statistikası

## Əsas kapitala yönəldilmiş investisiyanın dəyəri - rüblük

### Əsas kapitala yönəldilmiş investisiyanın dəyərinin 1-ci dəqiqləşməsi

Əsas kapitala yönəldilmiş investisiyanın dəyəri üzrə məlumatlar aşağıdakılar nəzərə alınmaqla formalaşdırılır:

- hesabata cəlb edilən müəssisələrin əvvəl təqdim etdikləri aylıq məlumatlara rəsmi dəyişiklikləri;
- kiçik müəssisələr üzrə rüblük məlumatlar.
- "Əhalinin vəsaiti hesabına tikilmiş yaşayış evlərinin və qeyri-yaşayış sahələrinin istismara verilməsi haqqında" 1-YET (əhali) rüblük hesabatının məlumatları.

### Əsas kapitala yönəldilmiş investisiyanın dəyərinin son dəqiqləşməsi (yekun)

Əsas kapitala yönəldilmiş investisiyanın dəyəri üzrə dəqiqləşdirilmiş yekunlar aşağıdakı məlumatların əsasında formalaşır:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik "Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında" 2-investisiya rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- "Əhalinin vəsaiti hesabına tikilmiş yaşayış evlərinin və qeyri-yaşayış sahələrinin istismara verilməsi haqqında" 1-YET (əhali) rüblük hesabatının məlumatları.

## Əsas kapitala yönəldilmiş investisiyanın dəyəri - illik

### Əsas kapitala yönəldilmiş investisiyanın dəyərinin son dəqiqləşməsi (yekun)

Aylıq və rüblük hesabatlardan formalaşdırılan illik məlumatlar ilin yekununa görə aşağıdakılar əsasında dəqiqləşdirilir:

- bütün müəssisələr tərəfindən təqdim edilmiş illik "Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında" 2-investisiya rəsmi statistika hesabatının məlumatları (kiçik müəssisələr daxil olmaqla);
- "Əhalinin vəsaiti hesabına tikilmiş yaşayış evlərinin və qeyri-yaşayış sahələrinin istismara verilməsi haqqında"1-YET (əhali) rüblük hesabatının məlumatları.

## Tikinti müəssisələrinin yerinə yetirdikləri işlərin ümumi dəyəri – rüblük

